# İŞ İCRAÇISI (YOL TİKİNTİSİ ÜZRƏ, SƏYYAR XARAKTERLİ) VƏZİFƏSİ ÜÇÜN MÖVZULAR

**1.Tikinti istehsalatının təşkili və texnologiyası üzrə:**

**Torpaq yatağının tikilməsi üzrə**

- Yol zolağının hazırlanması
- Tökmə və qazmaların tikilməsində torpaq işləri
- Dağ yamaclarında torpaq yatağının tikilməsi
- Torpaq işlərinin keyfiyyətinə nəzarət və onların qəbul edilmə qaydaları

**Torpaq yatağının konstruksiyası və ona qoyulan tələblər;**

**Yol geyiminin konstruksiyası və ona qoyulan tələblər;**

**Qruntların kipləşdirilməsi və ona qoyulan tələblər;**

**Yol geyiminin tikilməsi;**

**Yol tikintisinin istehsalat müəssisələri;**

**2.Tikinti obyektlərinin layihə smeta sənədləri;**

**3.Tikinti norma və qaydaları;**

**4.Tikinti quraşdırma işlərinin aparılmasına və qəbuluna qoyulan texnik şərtləri;**

**5.Avtomobil yollarının təmir-tikinti norma və qaydaları;**

**6.Yol tikintisində əmək normaları;**

**7.Yol tikintisində normativ sənədləşdirmə işləri;**

**8.Yol tikintisində istifadə olunan texnikaların (özüyeriyən hamar vərdənə maşını, frezer torpaq kəsən maşını) iş prinsipləri üzrə:**

**Torpaq işləri üçün maşın mexanizmlərin seçilməsi üzrə:**

- Buldozerlə torpaq işlərinin yerinə yetirilməsi
- Qreyderlə və avtoqreyderlə torpaq işlərinin yerinə yetirilməsi
- Skreperlə torpaq işlərinin yerinə yetirilməsi
- Ekskavatorla torpaq işlərinin yerinə yetirilməsi

**9.Materialların nəmliyini, keyfiyyətini, qranulometrik tərkibini habelə örtüyün konstruksiyasını nəzərə almaqla optimal tərkibli qarışıqların seçilməsi üsulları:**

**10.Əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizə norma və qaydaları:**

# ƏDƏBİYYAT:


1. R.M.ƏLİYEV "AVTOMOBİL YOLLARININ TİKİNTİSİ", Bakı – 1992
2. Ş.H,Həsənov, K.Ə.Əliyev, Z.T.İmrani, C.Ə.Camalov "Avtomobil nəqliyyatının ərazi təşkili və yol tikintisində keyfiyyətə nəzarət", Bakı – 2018
3. Ə.ƏLIYEV, K.ƏLIYEV "YOL – İNŞAAT MATERİALLARI", Bakı – 1997
4. Y.M.PIRIYEV "AVTOMOBİL YOLLARI", Bakı – 1999
5. AzDTN – Tikinti Norma və Qaydaları
6. İnşaat Norma və Qaydaları 2.05.02-85
7. https://ok.ru/tehlukesiz/topics
8. https://dejure.az/az/sample/myin-muhafizsi-v-texniki-thluksizlik-uzr-muhndisinin-vzif-tlimati
9. http://www.socar.az/socar/az/careers/assesment/test-samples
10. http://www.e-qanun.az/framework/14040

**1. Tökmə və qazmalarda torpaq yatağının konstruksiyasının en kəsik forması hansı formada olur?**
A) Romb formasında
B) Düzbucaqlı formasında
C) Kvadrat formasında
D) Trapesiya formasında
E) Üçbucaq formasında

**2. Torpaq işləri üçün maşınları seçərkən nəyi nəzərə almaq lazımdır?**
A) İnşa olunan torpaq yatağının nəmliyini
B) İşin yerinə yetirilmə ardıcıllığını
C) İşin həcmini və yerinə yetirilmə müddətini
D) İşin sənədləşmə qaydalarını
E) Yolun texniki istismar qaydalarını

**3. Yol tikintisində torpaq işləri hansı qrup işlərdən ibarət olur?**
A) Başlanğıc, əsas, aralıq
B) Hazırlıq, aralıq, tamamlama
C) Hazırlıq, tikinti-quraşdırma, tamamlama
D) Əsas, aralıq, tamamlama
E) Hazırlıq, əsas, aralıq

**4. Yolların və inşaat meydançalarının planasalınmasında hansı maşınlardan istifdə edilir?**
A) Buldozer və avtokranla
B) Ekskavatorlarla
C) Skreper və ekskavatorla
D) Qreyder və buldozerlə
E) Yükdaşıyan maşınlarla

**5. Torpaq yatağının tikintisində drenajların tikilməsi hansı işə aid edilir?**
A) Əsas işlərə
B)  Hazırlıq işlərinə
C) Xüsusi işlərə
D) Aralıq işlərə
E) Tamamlama işlərinə

Nümunə